AZƏRBAYCAN www.azerbaijan-news.az



## 26 sentyabr ümumxalq səsverməsi (referendum) günüdür



# Maarifləndirmə tədbirləri referendum subyektlərinin fəaliyyətinin daha da təkmilləşməsinə xidmət edəcək



Azərbaycan Respublikası Prezidentinin 26 iyul 2016-cı il tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi məqsədilə ümumxalq səsverməsi (referendum) keçirilməsi cari ilin sentyabrın 26-na təyin edilib. Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası tərəfindən ümumxalq səsverməsinin (referendumun) hazırlanıb həyata keçirilməsi istiqamətində tədbirlər planına uyğun olaraq artıq ilk addımlar atılmaqdadır. Referendumun yüksək səviyyədə keçirilməsi bir sıra amillərlə yanaşı, eyni zamanda, bu sahədə göstərilən təşəbbüskarlıq əzmi və təşkilatçılıq səviyyəsilə də bağlıdır.

Öncə qeyd edək ki, Azərbaycan Respublikasında qısa zaman kəsiyində seçki və referendumların hazırlanıb keçirilməsi sahəsində mühüm nailiyyətlər qazanılmışdır. Bu dövr ərzində seçki və referendum sistemi təkmilləşdirilmiş, mükəmməl hüquqi baza yaradılmış, seçkilər sahəsində ixtisaslaşmış beynəlxalq təşkilatlarla qarşılıqlı əməkdaşlıq və referendumun hazırlanıb keçirilməsi sahəsində xeyli müsbət təcrübə əldə olunmuş, Azərbaycan Respublikasının Konstitusiyasında təsbit olunmuş insan və vətəndaş hüquq və azadlıqlarının səmərəli təmin olunması və qorunması sahəsində inkişaf etmiş Avropa dövlətləri və nüfuzlu beynəlxalq təşkilatlarla əməkdaşlıq xeyli dərinləşmişdir.

Məlumdur ki, qloballaşan müasir dünyada insan və vətəndaşın çox mühüm konstitusion hüquqlarından biri kimi məhz seçki hüququ qəbul edilir. Azərbaycan Respublikası Konstitusiyasının 56-cı maddəsində təsbit olunmuş həmin normaya əsasən Azərbaycan Respublikası vətəndaşlarının dövlət orqanlarına seçmək və seçilmək, habelə referendumda iştirak etmək hüququ vardır. Həmin hüquqlar bilavasitə seçki (referendum) subyektlərinin özləri (seçicilər, namizədlər, qeydə alınmış namizədlər, siyasi partiyalar, siyasi partiyaların blokları, referendum üzrə təşviqat qrupları, qeydə alınmış namizədlərin, siyasi partiyaların, siyasi partiyalar bloklarının, referendum üzrə təşviqat qruplarının səlahiyyətli nümayəndələri, vəkil edilmiş şəxsləri, müşahidəçilər, habelə seçki komissiyaları və s.) tərəfindən qanunvericiliyin verdiyi imkanlar çərçivəsində reallaşdırılır.

Sirr deyil ki, bu gün respublikada ümumxalq səsverməsinin (referendumun) demokratik, azad, ədalətli, şəffaf və beynəlxalq standartlara uyğun keçirilməsi üçün hər cür şərait mövcuddur. Bu baxımdan ölkədə ictimai-siyasi sabitliyin, seçkilər sahəsində fəaliyyət göstərən peşəkar kadr potensialının mövcud olması, maddi-texniki təchizatın yüksək səviyyəsi, mükəmməl qanunvericilik bazasının və icra mexanizmlərinin yaradılması, eyni zamanda, çoxsaylı seçki (referendum) subyektlərinin hazırlıq səviyyəsi olduqca əhəmiyyətli amillərdir. Eyni zamanda, həmin subyektlərin maarifləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər də məhz nəzərdə tutulan məqsədə xidmət edir. Əgər nəzərə alsaq ki, beş milyondan artıq daimi seçici (referendumda iştirak etmək hüququ olan şəxs), referendum üzrə təşviqat qrupu, onların təmsilçiləri, müşahidəçilər, KİV nümayəndələri referendum prosesinə qoşulur, onda çoxsaylı seçki subyektləri üçün təşkil olunan maarifləndirmə tədbirlərinin əhəmiyyətini təsəvvür etmək çətin deyil.

Ümumiyyətlə, ölkədə seçkilərin (referendumun) hazırlanıb keçirilməsi səlahiyyətlərini həyata keçirən dövlət orqanı kimi Mərkəzi Seçki Komissiyasının çoxşaxəli fəaliyyətində maarifləndirmə işinin təşkili mühüm yer tutur. Seçki qanunvericiliyinə əsasən, Mərkəzi Seçki Komissiyası seçkilərin (referendumların) hazırlanması və keçirilməsi, seçki (referendum) sisteminin inkişafı, seçicilərin hüquqi biliklərinin artırılması, seçki komissiyaları üzvlərinin təlimatlandırılması ilə əlaqədar treninqlər keçirir və sonuncuların peşə hazırlığı ilə əlaqədar proqramların həyata keçirilməsini təmin edir.

Qarşıdan gələn ümumxalq səsverməsi (referendum) ilə bağlı Mərkəzi Seçki Komissiyasının diqqət mərkəzində dayanan məsələlərdən biri seçici siyahıları ilə işdir. Onu da qeyd edək ki, daimi xarakterli fəaliyyət istiqaməti olan seçici siyahıları ilə iş özünəməxsus maarifləndirmə imkanlarına malikdir. Seçici siyahıları çox mühüm seçki sənədi olmaqla il boyu fasiləsiz olaraq işlənilir, yenilənir və seçki komissiyaları tərəfindən ictimailəşdirilir. MSK-nın Dövlət Avtomatlaşdırılmış İnformasiya Sisteminin texniki və proqram təminatı imkanları xeyli genişləndiyindən bütün sahələrdə, o cümlədən seçici siyahılarının keyfiyyətinin daha da yaxşılaşdırılmasında mühüm irəliləyişlər vardır. İnamla demək olar ki, cari ilin mayında MSK tərəfindən təsdiq edilmiş seçici siyahıları ümumxalq səsverməsinin (referendumun) yüksək səviyyədə həyata keçirilməsi üçün tam hazır sayıla bilər.

Seçici siyahılarının dəqiqləşdirilməsində MSK-nın qaynar xəttinin əhəmiyyəti xüsusilə qeyd edilməlidir. Mərkəzi Seçki Komissiyasında fəaliyyət göstərən 115 nömrəli elektron qaynar xətt daim seçicilərin istifadəsindədir. Araşdırmalar göstərir ki, daxil olan müraciətlərin əksəriyyəti seçici siyahıları, səsvermə prosedurları, seçki məntəqələrinin yerləşdiyi ünvan və s. kimi mövzularla bağlıdır. Daxil olmuş müraciətlər dərhal cavablandırılır və operativ şəkildə müvafiq addımlar atılır. Bu da təbiidir, çünki yüksək texnologiyalar və innovasiyalar dövrünün insanları olaraq ölkə vətəndaşlarının bu sahədəki mövcud bilik və vərdişləri durmadan artır. Buna görə də Mərkəzi Seçki Komissiyası qanunvericiliyin verdiyi imkanlar hüdudunda internet vasitəsi ilə də seçicilərin və digər seçki subyektlərinin maarifləndirilməsi işini durmadan təkmilləşdirir.

Çox müsbət haldır ki, seçki subyektləri Mərkəzi Seçki Komissiyasının qəbul etdiyi bütün qərarlarla, sənədlərlə və keçirdiyi tədbirlərlə müasir texnologiyalardan asanlıqla istifadə etməklə yaxından tanış olur, həmçinin seçkilərdə iştirak edən subyektlərlə bağlı məlumatlar əldə edə bilirlər. Mərkəzi Seçki Komissiyasının internet səhifəsində (www.msk.gov.az, www.cec.gov.az, www.infocenter.gov.az) seçkilərlə bağlı bütün məlumatlar mütəmadi olaraq yerləşdirilir.

Məlumdur ki, ayrı-ayrı seçkilərdən fərqli olaraq, referendumun özünəməxsus xarakterik cəhətləri vardır. Bunlardan ən başlıcası referendum üzrə təşviqat qruplarının yaradılması və onların çoxşaxəli fəaliyyətidir. Təşviqat qrupu üzvlərinin qanunvericilikdə nəzərdə tutulan sayı bunu deməyə əsas verir ki, həmin subyektlərin maarifləndirilməsi, qanunvericiliyin onlara aşılanması, hüquqi biliklərin artırılması günümüzün ən aktual məsələlərindəndir. Bunu nəzərə alan MSK rəhbərliyi seçicilərinin və adları qeyd olunan seçki subyektlərinin maarifləndirilməsi məqsədilə televiziya, radio və dövri mətbuatda maarifləndirmə layihələrinin həyata keçirilməsinə start verib. Mərkəzi Seçki Komissiyasının üzvləri və əməkdaşları referendum dövrü İctimai Televiziya və Radio Yayımları Şirkətində hər həftə ümumxalq səsverməsi (referendum) və referendum prosesinin müxtəlif məsələlərinə həsr olunmuş mövzularla çıxış edəcək, eyni zamanda, mətbuat səhifələrində ictimai maraq doğuran məqalə və müsahibələr çap etdirəcəklər.

Ümumiyyətlə, qeyd etmək lazımdır ki, seçki komissiyaları kütləvi informasiya vasitələri ilə yaxından əməkdaşlıq edir, onlara seçkiləri işıqlandırmaları üçün hər cür şərait yaradır, öz peşə borclarını layiqincə yerinə yetirmələrinə lazımi köməklər göstərirlər. Ötən ildən başlayaraq bu əməkdaşlıq daha da dərinləşmiş və bir çox birgə tədbirlər də keçirilmişdir. Xüsusilə vurğulamaq yerinə düşərdi ki, KİV nümayəndələri mütəmadi qaydada MSK-nın tədbirlərinə dəvət olunur və lazımi məlumatları dərhal və birbaşa əldə edirlər. Ölkə ictimaiyyətinin seçkilərin hazırlanması və keçirilməsilə bağlı məlumatlandırılması məqsədilə MSK tərəfindən müxtəlif xarakterli mətbuat konfransları, brifinqlər keçirilir, respublikada fəaliyyət göstərən elektron informasiya vasitələrinə məlumatlar çatdırılır, mətbuat bülletenləri və məqalələr dərc olunur. Qarşıdan gələn ümumxalq səsverməsində (referendumda) da MSK kütləvi informasiya vasitələri üçün konfrans keçirməyi nəzərdə tutur.

Ümumxalq səsverməsi (referendum) ilə bağlı Mərkəzi Seçki Komissiyasının yaxın günlərdə həyata keçirməyi nəzərdə tutduğu layihələrdən biri kimi aşağı seçki komissiyaları üzvlərinin maarifləndirilməsini misal göstərmək olar. Bu, çox mühüm əhəmiyyət kəsb edən layihədir, çünki seçki komissiyalarının sisteminə daxil olan pillələrdə otuz bir mindən artıq komissiya üzvü fəaliyyət göstərir ki, seçkilərin beynəlxalq standartlara uyğun hazırlanıb keçirilməsi bilavasitə onların da peşəkarlıq səviyyəsindən, bilik və bacarıqlarından asılıdır.

Azərbaycan Respublikası Prezidentinin 28 dekabr 2006-cı il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında İnsan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı" və onun davamlılığının təmin edilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 27 dekabr 2011-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı"ndan irəli gələn vəzifələrin icrası ilə bağlı Mərkəzi Seçki Komissiyası tərəfindən aşağı seçki komissiyaları üzvlərinin peşə hazırlığının artırılması, seçkilər sahəsində onların bilik, bacarıq və işgüzar vərdişlərinin təkmilləşdirilməsi məqsədilə mütəmadi olaraq seçki hüququ üzrə ixtisaslaşdırılmış kurslar, habelə digər seçki subyektlərinin maarifləndirilməsi üçün bu qəbildən olan çoxsaylı tədbirlər həyata keçirilir ki, bu da artıq öz bəhrəsini verməkdədir. İki mərhələdən ibarət təşkil olunan seçki hüququ üzrə ixtisaslaşdırılmış kurslar öncə dairə seçki komissiyalarının sədrləri üçün, sonra isə dairə seçki komissiyası üzvləri və məntəqə seçki komissiyası sədrləri üçün ölkə üzrə təşkil edilir. Həmin tədbirlərə qanunverici, icra və məhkəmə hakimiyyətlərinin, həmçinin digər müxtəlif dövlət orqanlarının məsul şəxsləri cəlb olunurlar. Məlumat üçün qeyd edək ki, cari ildə seçki komissiyaları tam tərkibdə yenidən formalaşdığından qarşıdan gələn referendumla bağlı dairə və məntəqə seçki komissiyalarının üzvləri üçün müvafiq olaraq müşavirə, təcrübə mübadiləsi və seçki hüququ üzrə ixtisaslaşdırılmış kurslar keçirilməsi daha da intensiv aparılacaq.

Ümumxalq səsverməsi (referendum) ilə bağlı keçiriləcək layihələrdən biri də aşağı seçki komissiyaları üçün əyani vəsaitlərdən istifadə olunmaqla həyata keçirilən treninq layihələridir. Məlumat üçün qeyd edək ki, 2002-ci ildən əsası qoyulmuş bu layihə əvvəllər kiçik trenerlər qrupu vasitəsilə həyata keçirilirdi. 2008-ci ildən isə MSK tərəfindən Avropa Şurası Venesiya Komissiyası ilə birgə hər seçki dairəsi üçün 2 yerli trener hazırlanmağa başlanıldı. Hazırda bu trenerlər dairə və məntəqə seçki komissiyası üzvlərinin maarifləndirilməsində mühüm rol oynayır. Yeri gəlmişkən, ötən il keçirilmiş Milli Məclisə seçkilərlə əlaqədar aşağı seçki komissiyalarının maarifləndirilməsi məqsədilə 2 mərhələli treninq layihəsi həyata keçirildi. Birinci mərhələ çərçivəsində 2015-ci il oktyabrın 7-10-da Bakıda MSK-nın Treninq qrupu tərəfindən "Trenerlər üçün Treninq" layihəsinin icrası zamanı 125 seçki dairəsindən olan 250 yerli trener seçkilərdə səsvermə prosesi, müstəsna hallar, səslərin sayılması, protokolların doldurulması da daxil olmaqla seçki günü prosedurları barədə ətraflı məlumatlandırılıb, praktiki məşğələlər zamanı seçki günü ortaya çıxa biləcək hallar barədə interaktiv müzakirələrə cəlb olunub. Tədbir zamanı habelə əvvəlki seçkilər zamanı keçirilmiş treninqlərdə əldə olunmuş təcrübə müzakirə edilərək iştirakçılara lazımi tövsiyələr verilmişdir. Layihənin dairə və məntəqə seçki komissiyalarının üzvlərinin cəlb olunduğu ikinci mərhələsində MSK-nın Treninq qrupu aşağı seçki komissiyaları üzvlərinin treninqi üçün bütün lazımi məlumatları özündə əks etdirən xüsusi yardımçı slaydlar hazırlayaraq yerli treninq qruplarına təqdim etmişdir. Aşağı seçki komissiyalarının treninqinin ikinci mərhələsi ötən ilin oktyabrın 12-dən etibarən başlanılmış və MSK-nın Treninq qrupunun təqdim etdiyi cədvələ əsasən 35-40 nəfərlik kiçik qruplar üçün əyani vəsaitlərdən istifadə edilməklə keçirilmişdir. Treninqlər çərçivəsində aşağı seçki komissiyası üzvləri seçki prosesi ilə bağlı ətraflı məlumatlandırılmışlar. Eyni xarakterli tədbirin ümumxalq səsverməsinə (referenduma) da mühüm töhfə olacağı şəksizdir.

Dairə seçki komissiyalarının məsləhətçi-operatorları üçün praktiki treninqlər keçirilməsi də maarifləndirmə tədbirlərinin tərkib hissəsidir. Əvvəlki seçkilərdə olduğu kimi, hazırkı ümumxalq səsverməsində də (referendumda) təşkil olunacaq treninqlərdə dairə seçki komissiyalarının kompüter mütəxəssislərinə səsvermə günü məlumatlarını MSK-ya ötürmək üçün istifadə edəcəkləri Dövlət Avtomatlaşdırılmış İnformasiya Sisteminin yeni şəbəkə variantı barədə praktiki məlumat verilməsi, əyani formada istifadə qaydalarının öyrədilməsi nəzərdə tutulur. Treninqlərin nəticəsində operatorların praktiki iş təcrübəsi daha da zənginləşir ki, bu da səsvermə günü şəbəkədən daha rahat istifadəni təmin edir.

Ümumilikdə maarifləndirmə proqramları çərçivəsində iştirakçılara seçkilərə hazırlıq, həyata keçirilmiş layihələr, seçki hüququnun həyata keçirilməsi və vətəndaşların seçki hüququnun təmin olunması, seçki qanunvericiliyi və normativ-hüquqi sənədlər, yerli və beynəlxalq müşahidənin əsasları və digər məsələlər ətraflı müzakirə edilir, ortaya çıxan suallar əhatəli şəkildə cavablandırılır. Onu da qeyd edək ki, bu proses bir çox hallarda digər təşkilat və qurumların təmsilçiləri - yerli icra hakimiyyəti başçıları, polis orqanları və penitensiar xidmət əməkdaşları, gənclər təşkilatları ilə birlikdə həyata keçirilir. Həmçinin maarifləndirmə tədbirlərinə beynəlxalq təşkilatların nümayəndələrinin qoşulması təcrübəsi genişlənməkdədir. Bu, özünü sonuncu parlament seçkilərində bir daha göstərdi. Belə ki, MSK Avropa İttifaqı ilə birgə layihə çərçivəsində 2015-ci il avqustun 14-dən 19-dək namizədlərin qeydiyyatı prosedurunun daha da gücləndirilməsi ilə əlaqədar genişmiqyaslı treninqlər həyata keçirmişdir. Treninqlər Bakı, Şirvan, Gəncə və Şəki şəhərlərində keçirilməklə və ölkə üzrə 125 seçki dairəsinin dairə seçki komissiyalarının hər birindən iki təmsilçi olmaqla, ümumilikdə 250 aşağı seçki komissiyası rəsmisini əhatə etmişdir. Tədbirlər zamanı beynəlxalq ekspertlər və MSK üzvləri tərəfindən parlament seçkilərində namizədliyin qeydiyyatı üzrə qanunun tələbləri, həmçinin namizədliyin irəli sürülməsi və qeydə alınması prosedurları ilə bağlı müxtəlif mövzularda təqdimatlar aparılıb, əyani vəsaitlərdən istifadə edilməklə keçirilən treninqlərdə mövzularla bağlı ətraflı məlumat verilmiş, müzakirələr aparılmış və iştirakçıları maraqlandıran suallar cavablandırılmışdır. Genişmiqyaslı maarifləndirmə layihəsi kimi həyata keçirilən tədbir dairə seçki komissiyaları üzvlərinin məlumatının artırılması və namizədlərin qeydiyyatı proseduru ilə bağlı onların bilik, bacarıq və işgüzar vərdişlərinin daha da təkmilləşdirilməsinə hədəflənmişdir. Beynəlxalq təşkilatlarla əməkdaşlıq əlaqələrinin referendum dövründə də davam etdirilməsi fəaliyyətimizin əsas istiqamətlərindən biridir.

Referendumun uğurla həyata keçirilməsində normativ xarakterli aktların hazırlanması və yayılması seçki subyektlərinin hüquqi biliklərinin artırılması baxımından az əhəmiyyət daşımır. Qərarlar, təlimatlar və izahlar formasında qəbul edilən həmin aktlar bilavasitə seçki qanunvericiliyinin təkmilləşdirilməsi, seçki subyektlərinin hüquqi biliklərinin artırılması, bir sözlə, hüquq maarifçiliyi məqsədlərinə xidmət edir. Mərkəzi Seçki Komissiyası ölkədə keçirilən hər bir seçki (referendum) üçün yuxarıda qeyd olunan məqsədə uyğun olaraq "Təlimat, Qayda və İzahlar" topluları hazırlayaraq onun çap olunması və aşağı seçki komissiyası üzvləri arasında paylanması işini uğurla təşkil edir. Ənənəyə sadiq qalaraq qarşıdan gələn referendumla bağlı toplular çap olunaraq aşağı seçki komissiyalarına və digər seçki subyektlərinə paylanılmaqdadır. Bundan başqa, ümumxalq səsverməsinin (referendumun) hazırlanması və keçirilməsi üzrə "Əsas hərəkətlərin və tədbirlərin Təqvim Planı", "Səsvermə günü üçün Yaddaş kitabçası", "Müşahidəçilər üçün Yaddaş kitabçası", "Polis üçün Yaddaş kitabçası" və sairə vəsaitlər çap olunaraq seçki subyektlərinin istifadəsinə veriləcəkdir.

Müsbət haldır ki, MSK-nın maarifləndirmə məqsədi daşıyan tədbirlərinin hüdudları ildən-ilə genişlənir. Əgər 27 may 2003-cü ildən - Seçki Məcəlləsi qüvvəyə mindikdən sonra maarifləndirmə tədbirləri əsasən aşağı seçki komissiyası üzvləri və seçicilər arasında aparılırdısa, sonradan bu xarakterli tədbirlər polis əməkdaşları, seçici qadınlar, ilk dəfə səs verəcək gənclərlə də təşkil olundu və səmərəli nəticələr verdi. MSK rəhbərliyi də bu xarakterli tədbirlərin əhatə dairəsini daha da genişləndirməyi məqsədəmüvafiq hesab edir.

Məlumat üçün qeyd edək ki, ölkədə ilk dəfə 2015-ci il iyulun 9-da və avqustun 13-də və cari ildə isə iyunun 7-də Mərkəzi Seçki Komissiyası tərəfindən siyasi partiyaların maliyyə hesabatlarının tərtib edilməsi, qəbul olunması, nəzərdən keçirilməsi və ictimailəşdirilməsinə həsr olunmuş iki seminar keçirilib ki, bu da siyasi partiyalarla bağlı qanunvericiliyin təkmilləşdirilməsi tələblərindən irəli gəlib. MSK Katibliyinin Nəzarət-Təftiş Xidmətinin, Siyasi partiyaların maliyyə hesabatları ilə iş və Siyasi partiyaların sənədləri ilə iş sektorlarının əməkdaşları üçün təşkil olunmuş birinci seminarda siyasi partiyaların illik maliyyə hesabatlarına dair tələblər, onların tərtib edilməsi, səlahiyyətli orqana göndərilməsi, nəzərdən keçirilməsi və ictimailəşdirilməsi, siyasi partiyaların illik hesabatlarının tərtib edilməsində müstəqil auditorların rolu, onların hüquq və vəzifələri, auditor rəyinə və hesabatına dair tələblər, hesabatın əsasını təşkil edən maliyyə sənədləri və onların xüsusiyyətləri, eləcə də maliyyə hesabatlarına dair qanunvericiliyin tələblərinin pozulmasına görə məsuliyyət mövzularında çıxışlar dinlənilib. Seminarda həmçinin siyasi partiyaların maliyyə hesabatları ilə bağlı müxtəlif mövzularda müzakirələr aparılıb, meydana çıxan suallar cavablandırılıb. İkinci seminarda isə rəsmi dövlət qeydiyyatından keçmiş siyasi partiyaların təmsilçilərinin iştirakı ilə qeyd edilən məsələlər ətrafında geniş fikir mübadiləsi aparılmışdır. Hər iki tədbirdə aidiyyəti dövlət qurumlarının - Azərbaycan Respublikası Maliyyə Nazirliyinin, Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin və Azərbaycan Respublikası Auditorlar Palatasının nümayəndələri də iştirak və çıxışlar etmişlər.

Seçki təcrübəsi göstərir ki, seçkilər zamanı bəzən bu və ya digər səbəblərdən vətəndaşların seçki hüquqlarının pozulması halları olur. Bu isə pozulmuş seçki hüquqlarının bərpa olunması zərurətini yaradır. Məhz bu zərurətlə bağlı Mərkəzi Seçki Komissiyası 2008-ci ildən başlayaraq Avropa Şurası Venesiya Komissiyasının ekspertləri ilə birgə şikayət və müraciətlərə baxılması ilə əlaqədar dairə seçki komissiyalarının ekspert qruplarının üzvləri üçün seminar-treninqlər keçirir. Seçki qanunvericiliyinə görə şikayətlər ilkin olaraq dairə seçki komissiyalarında yaradılan 3 nəfərdən ibarət ekspert qrupunun üzvləri tərəfindən araşdırılır. Bu şəxslər üçün seminar-treninqlərin keçirilməsi həm nəzəri, həm də praktiki cəhətdən çox faydalıdır. Cəsarətlə demək olar ki, ötən müddət ərzində həmin ekspertlərin topladığı müsbət təcrübə bu gün aydın şəkildə hiss olunmaqdadır.

Bundan başqa, respublikada 2008-ci ildən başlayaraq tətbiq olunan və internet vasitəsilə səsvermə prosesini canlı izləmək imkanı verən veb-kameralardan istifadə təcrübəsi və coğrafiyası da ildən-ilə artmaqdadır. 2013-cü il Azərbaycan Respublikasının Prezidenti seçkilərindən başlayaraq seçkilərdə şəffaflığın yüksək səviyyədə təmin olunması üçün bütün digər vasitələrlə yanaşı, respublikadakı seçki məntəqələrində əvvəlki seçkilərdə quraşdırılmış veb-kameraların sayı 2 dəfə artırılaraq 500-dən 1000-ə (təxminən 20%-ə) çatdırılmışdır. Veb-kameralar quraşdırılmış seçki məntəqələrinin siyahısı təsdiq olunaraq dərc olunmuş və MSK-nın rəsmi internet səhifəsində yerləşdirilmişdir. Seçki günü bu veb-kameralar vasitəsilə internet istifadəçiləri istər ölkə daxilindən, istərsə də xaricdən MSK-nın internet səhifəsinə daxil olaraq səsvermə prosesini, səslərin sayılması və nəticələrin müəyyənləşdirilməsini arası kəsilmədən canlı müşahidə etmək imkanına malik olmuşlar. Bu müsbət tendensiyanın davamlı olması və ölkə coğrafiyasını bütünlüklə əhatə etməsi əsas hədəflərimizdəndir.

İnamla demək olar ki, qarşıdan gələn ümumxalq səsverməsində (referendumda) seçki (referendum) komissiyaları tərəfindən bu prosesdə iştirak edən subyektlərin maarifləndirilməsi məqsədilə həyata keçirilən bütün tədbirlər nəticə etibarı ilə seçki praktikasının zənginləşməsinə və seçki subyektlərinin hazırlıq səviyyəsinin təkmilləşdirilməsinə xidmət edəcəkdir.

***Natiq MƏMMƏDOV,***
***Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası sədrinin müavini***